

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 7-8 (7584-7585) * 1933-cü ildən nəşr olunur * Bazar ertəsi, 10 fevral 2020-cu il. news@qebele-ih.gov.az


**İlham ƏLİYEV:** *Bizim siyasətimizdə əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir.*

# Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi İnkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib




Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlətimizin başçısı konfransda giriş nitqi söyləyib.

Sonra İqtisadiyyat naziri Mikayıl Cabbarov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Mingəçevir Sənaye Parkındakı "Mingəçevir Tekstil" MMC-nin direktoru Mehman Hüseynov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Anar Əsədullayev, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, "Brightman Business Managment Consultans" meyvə və tərəvəz konservlərinin istehsalı müəssisəsinin direktoru Afət Əhmədova, Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, "Ağstafa Aqrar Sənaye Kompleksi" müəssisəsinin icraçı direktoru Anar Orucov və Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov çıxış ediblər.



Daha sonra Prezident İlham Əliyev yekun nitqi söyləyib.